Hacı Amil Məlikov

# AVROPA ÖLKƏLƏRİNİN ORTA ƏSRLƏR TARİXİ ÜZRƏ XRONOLOJİ İCMAL

9752

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ADİLOĞLU
Bakı-2011

63.3(4)+63.3(4)4
M 50



Elmi redaktor: **Hacı Həsənov**
Respublika E.A. Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru.

*Bu kitabı əmim Qabil Məlikheydər oğlunun əziz və nurlu xatirəsinə həsr edirəm.*

**Hacı Amil Məlikov "Avropa ölkələrinin orta əsrlər tarixi üzrə xronoloji icmal". "ADİLOĞLU" Bakı 2011. 132 səh.**

Təqdim olunan bu vəsait ictimai-iqtisadi formasiyaların ən mühüm dövrü - feodalizm dövrü tarixinin xronoloji xülasəsinə həsr edilmişdir və bu işdə ali məktəb tələbələri və orta məktəb müəllimlərinin ehtiyacları nəzərə alınmışdır. Qərbi Avropa ölkələrinin zəngin tarixi köhnə xronoloji materiallarla kifayətlənməyi mümkünsüz edir, yeni xronoloji materialın hazırlanmasının zəruri edirdi. Əvvəlkindən fərqli olaraq bu yeni xronoloji materialda daha maraqlı və ilk dəfə istifadə olunan rəqəm materialları daxil edilmişdir.

4722110018 / 121-2011 qrifli nəşr

(C) A.Məlikov 2011



## BİR NEÇƏ SÖZ

Bu vəsaiti işləyib nəşrə hazırlamaq iki zərurətdən irəli gəlmişdir. Birincisi, orta əsrlər dövrünün ümumdünya tarixinin ən vacib hissəsinin olması ilə bağlıdır. Bu dövr tarixin ən keşməkeşli, ictimai sarsıntılarla, dramatik hadisə və proseslərlə zəngindir, ümumdünya mədəniyyəti xəzinəsinə misli görünməmiş nailiyyətlər bəxş edən, cahanşümul əhəmiyyətə malik şəxsiyyətləri tərbiyə edib yetişdirən, nəhəng siyasi mübarizələrin irəli çəkildiyi dövrdür. Əgər qədim dövr bizim üçün xeyli dərəcədə statik, insan hisslərini az dərəcədə ehtirasa gətirirsə, orta əsrlərdə sanki bizə hər şey yaxındır, maraqlıdır. Hadisələri, sanki az qala orada iştirak etdiyimiz şəkildə böyük sövqlə izləyirik, onlar haqqında azad və sərbəst mühakimələr yürüdə bilirik. Ona görə ki, yaşadığımız dövr orta əsrlər dövrünün yetirməsi və xələfidir. Onun bütün varlığı orta əsrlər dövründə həsrəyə gəlib yetişmişdir. Orta əsrlər dövrünün bir çox hökmləri bu gün də aktual və yerinə yetirilməkdədir. Məgər Nizami, Nəsimi, Füzuli Şah İsmayıl, Frank İmperatoru Böyük Karl, Çex reformatoru, adı dillərdə sevilə-sevilə çəkilən Yan Qus, qadınlar dünyasının qəhrəmanı, Fransanı ingilis zülmündən xilas olmasının başlanğıcını qoyan Janna d'Ark və başqaları orta əsrlər dövrünün yetişdirmələri deyildilərmi? Bütün bu deyilənlər orta əsrlər tarixinin bu gün də, gələcəkdə də, həmişə daha da dərindən öyrənilməli olduğunu vacib hesab etmək üçün hər cür əsaslar irəli sürməyə imkan verir.

İkincisi, bu vəsaiti hazırlamaq təşəbbüsünü mənim özümün bu dövrdə olan münasibətimdir. Hələ tarix fakültəsinin ilk kur-

sunda, hələ orta əsrlər tarixinin keçmədiyimiz bir vaxtda Avropanın orta əsrlər dövrünə məndə qarşısıalınmaz bir həvəs yaratmışdı. Cəsarətlə deyə bilərəm ki, bu həvəs məndə az qala xəstəlik səviyyəsində özünü göstərirdi. Lakın iş elə gətirdi ki, bu sahə üzrə mütəxəssis olmağı həyat mənə qismət etmədi. Sonralar həyatımı başqa sahədə elmi-tədqiqat işlərinə sərf etdim, sosial-psixologiyaya, tarixin tədrisi metodikasına dair neçə kitab və məqalələrin müəllifi oldum, Füzuliyə dair dörd monoqrafiyanın müəllifi oldum. Adama elə gəlirdi ki, artıq Avropanın orta əsrlər tarixinə dair həvəs sönüb-getiş olar. Lakin elə deyilmiş! Bu həvəs sanki ömrü həbsxanalara girib çıxmaqdan ibarət bir cinayətkar kimi məndən əl çəkməmiş, zaman-zaman məni müvəqqəti tərk etmiş, sonra yenə də qayıdıb yaxamdan yapışmışdır və bu gün də belədir. Bu həvəs və hissləri başımdan edib onları əliboş yola salmış olsam da bu gün bunu bacarmadım. Nə isə bir şey yazıb-yaratmaq, bu sahədə izimi qoymaq qərarına gəldim. Çox götür-qoy edəndən sonra həqiqətən bu gün də ehtiyac duyulan bir işi - Avropanın orta əsrlərinə dair xronologiya hazırlamaq işini görmək qərarına gəldim. Və bunu böyük həvəslə, xüsusi sövq ilə yerinə yetirdim.

Respublikamızda belə materialın olmasını zəruri edən səbəblərdən biri də odur ki, əlimizdə orta əsrlər xronologiyasına aid xüsusi bir nəşr, məncə olmamışdır. Əgər hafizəm məni aldatmırsa yalnız 1951-ci ildə akademik Ə.C.Sumbatzadənin tələbələr üçün buraxdığı vəsait mövcuddur. Sonra isə belə bir nəşrin mövcud olduğunu xatırlamıram. İkinci bir tərəfdən Əlisöhbət müəllimin bu vəsaiti nə qədər samballı olsa da bugünki ehtiyacı ödəmir. Əvvəla ona görə ki, son 60 il ərzində Avropa medievistikası durmadan öyrənilməkdə davam etmiş, yeni-yeni hadisələr üzrə çıxarılmış, deməli, çoxlu sayda illər də kəsf edilmişdir. Hazırladığım xronologiya bunu sübut edir. Ona görə də Avropanın orta əsrlərinə dair yeni nəşrlər hökmən lazımdır. İkinci səbəb məzmunla bağlıdır. Əlisöhbət müəllimin adını çəkdiyimiz xronoloji materiallaında hadisələrin yalnız adı çəkilir, ancaq onların proses kimi təqdimatı yoxdur, yəni hadisə haqqında məlumat verilmir. Məsələn “1320-Kassel döyüşü”, “1290 - Yəhudilərin İngiltərədən qovulması”, “1559 - Ambuaz qəsdi” və s. gördüyümüz kimi adları çəkilən hadisələrdə söhbətin nədən getdiyi məlum deyildir. Bu isə oxucunu hadisələr haqqında biliklər əldə etməyə imkan vermir. Deməli xronologiyada illərlə yanaşı onların hadisələrini müəyyən qədər izahlı şəkildə vermək lazımdir ki, oxucu hadisələr haqqında səhih və ilkin biliklər əldə edə bilsinlər. Yəni xronologiya izahlı xarakter daşımalıdır. Çünki xronologiya hadisələr yığnağından ibarət yox, hadisələr haqqında bilklər sistemindən ibarət olmalıdır. Məsələn bir nümunə də gətirək. Əlisöhbət müəllim öz materiallarında belə yazır: “1606 - Donauvaertd hadisəsi”. Mən isə öz materiallarımda belə yazıram: “1606 - Donauvertdə protestantların dini nümayişi katoliklər tərəfindən amansızcasına yatırılır” göründüyü kimi mənim materiallarımda Danauvert əhvalatı izahlı şəkildə verirlir. Bununla mən heç də Əlisöhbət müəllimin həmin xronoloji materiallarına kölgə salmaq istəmirəm. Əksinə, onun bu materialı mənim istifadə etdiyim ən mötəbər mənbələrdən biri olmuşdur. Belə ki, Əlisöhbət müəllimin adını çəkdiyimiz həmin xronoloji materialında elə qiymətli hadisələrin adı çəkilir ki, orta əsrlərə aid heç bir kitabda onların izahına rast gəlmək mümkün deyildir. Məsələn, 1290-cı ildə İngiltərədən yahudilərin qovulmasının nə olması haqqında 50 ilə yaxındır ki, yeri-göyü ələk-vələk edib məlumat toplamaq istəmişəm, lakin heç bir nəticəsi olmamışdır. Yalnız internetə daxil olmaqla mənə lazım

olanı tapa bilmişəm. Ümumiyyətlə materialı hazırlamaq işində internet xidmətindən geniş istifadə etmişəm.

Orta əsrlərə məxsus ali məktəb dərsliklərinin arxasında adətən xronologiya adı altında böyük bir siyahı verilir. Bu siyahı hər nədirsə bilmirəm, hər halda xronologiya deyil.

Mən hazırkı xronoloji materialı işləməyə başlamazdan əvvəl bir qədər fikirləşdim ki, bu vəsaiti hansı prinsip üzrə hazırlamaq lazımdır?

Görəsən nə qədər rəqəm varsa hamısını materiala daxil etməliyəm, bu əndazədən çıxmaq olmazmı? Mən sövq təbii hiss etmyə başladım ki, müəyyən dövrə aid bütün xronoloji rəqəmlər eyni dəyər və əhəmiyyətə malik ola bilməzlər. Əgər bu yolla getsəm onda işlədiyim bu material bütün ölçüləri və əndazəni ötüb keçər, maraqsız olar və oxucunu yorar. Odur ki, mən işimi "hər nə varsa hamısını yazmalı" prinsipindən uzaq tutdum, onu ən vacib rəqəmlərlə zənginləşdirmək və mühüm tarixi faktlarla əlaqələndirmək prinsipi ilə çalışdım. Və mənə elə gəlir ki, məqsədimə hansı bir dərəcədəsə nail olmuşam.

O ki, qaldı mühüm ola biləcək səhvlərə, bunsuz heç nə hasilə gələ bilməz, bu bir obyektiv hadisədir. Elmi işçi kimi çalışdığım son 25 il ərzində mən qəti yəqinliklə deyə bilərəm ki, ideal əsər yoxdur, ən kamil elmi işlərdə belə müəyyən nöqsan və qüsurlar olur. Mənim də bu işimdə onlara hökmən rast gələcəklər. Ona görə də orta əsrlər tarixi ixtisası üzrə mütəxəssis olan bütün alimlərdən bu vəsaitdəki nöqsanlar üçün dönə-dönə üzr istəyir və bağışlanmağımı diləyirəm. Hazırki əsərim haqqında onların qiymətli fikirlərini və iradlarını səbirsizliklə gözləyir və bunun üçün onlara öz dərin təəkkürümü bildirirəm.

*A.Məlikov*





## BARBAR TAYFALARI VƏ DÖVLƏTLƏRİ

Eramızın II əsrin ortaları - Qotların Baltik dənizi sahillərindən Mayns çayı boyuna köçmələri.

165-180 - Markomann müharibələri. Barbar tayfaları- markomanlar, kvadlar, vandallar, germundurlar imperiyanın Retsiya, Norik, Pannoniya, Dakiya, İlliriya əyalətlərinə soxulurlar.

375 - Uzaq Asiyadan çoxsaylı Hun tayfaları Azov dənizi sahillərinə köçdülər.

375 - Hunlar tərəfindən Ostqot tayfa ittifaqı darmadağın edilir.

378 - Adrianopol yaxınlığında döyüş. Qotlar Roma ordusu üzərində böyük qələbə qazanırlar. İmperator Valent öldürülür, sərkərdə Feodosi güclə qaçıb canını qurtarır.

395-Vestqotlar öz sərkərdəsi Alarixin rəhbərlyi altında İmperiyanın içərilərinə dağıdıcı yürüşlər təşkil edirlər və Konstantinopolu tutmağa cəhd göstərirlər.

395-Roma imperiyası Qərb və Şərq hissələrinə bölünür.

401-Vestqotlar Şimalı İtaliyaya yürüşlər təşkil edirlər, lakin onlar Roma sərkərdəsi Stilixon tərəfindən dəf edilirlər.

405-407-Radaqaysın başçılığı ilə müxtəlif alman tayfaları (vandallar, alanlar, svevlər və s) İtaliyaya hücum edib Florensiyanı mühasirəyə alırlar, lakin Stilixon güc-bəla ilə onları dayandıra bilir.

410-Alarixin başçılığı ilə vestqotlar Romanı dəhşətli surətdə talan edirlər.

419 - Mərkəzi Tuluza olan Vestqot krallığı meydana gəlir (534-cü ilə qədər).

429-439 - Henzerix başda olmaqla vandallar alanlarla birləşə-

rək Cəbəllütarix boğazını keçib Şimali Afrikada paytaxtı Karfagen olan Alan-Vandal krallığı yaradırlar. (534-cü ilə qədər).

447-457 - Qalliyada Rona çayı sahilində paytaxtı Lion olan Burqundiya krallığı yaranır. (534-cü ilə qədər)

451 - Hunlar Qalliyaya soxulub Orleanı mühasirəyə alırlar. Hun təhlükəsinə cavab olaraq imperiya və barbar qüvvələri birləşirlər. Katalaun çölündə "Xalqlar döyüşü" baş verir. Atilla hunları bu döyüşdə qalib gəlirlər.

452 - Atilla İtaliyaya yürüş təşkil edir. Lakin Romanı tutmaqdan boyun qaçırır və yalnız zəngin hədiyyələr almaqla kifayətlənir.

453 - Atilla vəfat edir və onun yaratdığı Hun hərbi-siyasi ittifaqı dağılır.

455 - Henzerixin rəhbərliyi ilə vandallar Romaya hücum edib onu ağılasığmaz bir şəkildə talan edirlər. Məhz buna görə "vandalizm" dünya xalqlarının leksikonuna vəhşilik nümunəsi kimi daxil olmuşdur.

476 - Roma imperiyasının süqutu Alman Odoakrin səyi ilə sonuncu Roma imperatoru Romul Avqust taxtdan salınır. Bu zamandan etibarən Roma imperiyası formal olaraq sona çatmış hesab olunur. Əslində Roma imperiyasının süqutu uzun sürən bir tarixi proses kimi qəbul edilməlidir.

476-493 - İtaliyada Odoakr dövləti.

493 - İtaliyada Ostqotlar dövlətinin yaranması (554-cü ilə qədər)

493-526 - Ostqot kralı Teodorixin hakimiyyəti

533-555 - Qot müharibəsi. Bu müharibə ostqotlar ilə bizanslılar arasında baş vermişdir.

533 - Bizans imperatoru Yustinian sərkərdəsi Velizarinin komandanlığı altında İtaliyaya böyük bir donanma göndərir və az müddət içərisində bu donanma İtaliyanın çox hissəsini işğal edir.





534 - Bizans ordusu Şimali Afrikada Alan-Vandal krallığını ləğv edir.

534 - Bruqundiya krallığı franklar tərəfindən ləğv edilir.

552 - Bizansdan göndərilən ordu Ostqot ordusunu məğlub edir.

555 - Bizanslılar Ostqot dövlətinin varlığına son qoyurlar, bütün Ostqot əhalisi qılıncdan keçirilir, İtaliya tamamilə işğal olunur.

568 - Şimali İtaliyaya yeni barbar tayfaları - lanqobardlar basqın edirlər. Onların hökmdarı Alboin, paytaxtı isə Paviya şəhəri olmuşdur. Lanqobardlar İtalıyaya çox güclü icma münasibətlərini özləri ilə gətirmişdilər. Quldarlıq onlardakı icma münasibətlərinə qətiyyən təsir etməmişdi.

568-774 - İtaliyada Lanqobardlar dövləti.

754-757 - Frank kralı Gödək Pipin lanqobardları məğlub edir və onların çoxlu torpaqlarını ələ keçirir.

774 - Frank kralı Böyük Karl lanqobard krallığını tamamilə ləğv edir.

## FRANKLAR

III əsr - Reyn çayının aşağı axarlarında frank tayfa ittifaqı meydana gəlir.

IV əsr - Franklar iki qrupa bölünürlər, onlardan biri Salik franklarıdır ki, dəniz sahili ərazilərdə yaşayırdılar (Reyn çayının aşağı axarlarında). Digəri isə ripuar frankları idi, onlar Mayns çayından şərqə tərəf əraziləri məskunlaşdırmışdılar.

481-511 - Xlodviqin krallığı. O işğal olunmuş torpaqları gen-

bol öz döyüşçülərinə paylayır, onlara öz hakimiyyətinin dayağı kimi hər cür geniş imkanlar yaradırdı.

486 - Xlodvigin başçılığı ilə franklar bütün Şimali Qalliyanı işğal edirlər. Buranın Roma canişini olan Sneqrini taxtdan salan Xlodviq özü bu ərazilərin şəksiz hakimi olur.

496 - Xlodviq mühüm siyasi addım atır: Roma qaydaları əsasında xristianlığı qəbul edir. Bütün franklar ailələri ilə birlikdə xaç suyuna çəkilirlər. Bu barbarların romalaşmasının ən mühüm əlaməti idi.

507-510 - Vestqotlarla müharibə aparılır.

507 - Puatye döyüşündə franklar vestqotları məğlub edir və Akvitaniyanı ələ keçirirlər. Az keçəndən sonra Qalliyanın çox hissəsinə sahib olurlar. (Cənubi-Şərqdə Burqundiya, cənubda Septimaniya, qərbdə Bretan istisna olunmaqla).

511-613 - Frank dövlətində Xlodviqin nəvələri arasında 40 illik dağıdıcı daxili müharibələr ölkəni xeyli zəiflədir.

534 - Franklar Burqundiya krallığına son qoyurlar.

542 - Franklar Qalliyada vestqotların son mülklərini ləğv edirlər. Az sonra Allemaniya, Türingiya, Bavariya və Saksoniyanı da özlərinə tabe edirlər.

561-579 - Frank kralı Xilderik. Frank cəmiyyətində bərabərsizlik güclənir. Xilderikin fərmanına əsasən nəinki kişilər, hətta qadınlar da əmlaka sahib ola bilərdilər. Beləliklə allod adlanan azad sürətdə özgəninkiləşən torpaq-mülkiyyət forması meydana gəlir.

579 - Limojda torpaq vergilərinin artırılmasına qarşı yoxsulların üsyanı baş verir.

613-629 - Frank kralı II Xlotar. O, ölkədaxili çəkişmələrdən qalib çıxır. Avstraziyanı və Burundiyanı özünə tabe edir və birləşmiş Frank krallığının hökmdarı olur.





614 - II Xlotar xüsusi ediktlə iğtişaşlar vaxtı aristokratiyanın əlindən çıxan mülkləri onlara qaytaracağını vəd edir.

629-639 - Frank kralı Daqobert. O Frank krallığının sərhədlərini genişləndirməyə cəhd edir və bu məqsədlə Şərqdə Slavyanlara qarşı yürüşlər təşkil edir.

639-751 - "Tənbəl krallar dövrü". Bu dövr ona görə belə adlanır ki, Xlodviq sülaləsinin, yaxud Merovinqlərin hökmdarları real hakimiyyətdən məhrum idilər, ölkənin inkişafı üçün heç nə etmirdilər. Krallığı yalnız mayordomlar - kral təsərrüfatını idarə edənlər ələ keçirmişdilər. Onlar kral taxt-tacına sahib çıxmışdılar. İstədikləri adamı taxtdan salıb əvəzinə başqasını kral seçirdilər.

687 - Tertri ətrafındakı döyüşdə Avstraziya mayordomu Pipinlər sülaləsindən olan hersoq II Herstallı Pipin Neystriya mayordomunu məğlub edib bütün krallığı mayordom adı ilə idarə etməyə başlyır. O hələ xəyalən də olsa kral titulunu saxlamağı lazım bilirdi.

687-715 - II Herstallı Pipinin mayordomluğu. Faktiki olaraq II Pipin Merovinqlər sülaləsinə son qoyub Karolinqlər sülaləsinin əsasını qoyur.

715-741 - Herstallı Pipinin oğlu Karl Martellin mayordomluğu ("Martell"çəkic deməkdir). Çox enerjili adam olan Martell Avstraziyanın xırda və orta torpaq sahiblərinə və öz drujnasına arxalanaraq Neystriyanın aristokrat müxalifətini əzərək Frank dövlətinin sərhədlərini genişləndirdi, sakslar, allemanlar və bavarlar üzərinə yürüyüşlər təşkil etdi.

732 - Puatye ətrafındakı döyüşlərdə Karl Martell ərəb sərkərdəsi Əbdürrəhmanın ordusu üzərində qələbə qazanır. Bu hadisənin şərəfinə ona Martell-çəkic ləqəbi verilir.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

